BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2006

# AZƏRBAYCANDA ƏLAVƏ CƏZALAR HAQQINDA CİNAYƏT QANUNVERİCİLİYİNİN İNKİŞAF TARİXİNƏ DAİR

**A.Ə.CƏFƏROV**
***Bakı Dövlət Universiteti***

*Əlavə cəzaların meydana gəlməsi və inkişafı cəmiyyətin inkişafının obyektiv qanunauyğunluqları ilə şərtlənir. Bu cəzaların qanunvericilikdə tənzimlənməsi və praktikada tətbiqi həmin qanunauyğunluqlara uyğun olaraq inkişaf edir. Məqalədə əlavə cəzaların uzun tarixi inkişaf yolu keçdiyi göstərilir. Son iki əsrdə Azərbaycanın Rusiya ilə bağlılığı ilə əlaqədar əlavə cəzaların 1920-ci ildən əvvəlki inkişafı Rusiyanın 1845-ci il Cinayət və islah cəzaları haqqında Qanunnaməsi, 1903-cü il Cinayət Qanunnaməsi əsasında araşdırılır. Sonra Azərbaycan Respublikasının sovet dövründə qəbul edilən Cinayət Məcəllələrində (1922, 1927 və 1960) əlavə cəzaların tənzimlənməsi və praktikada tətbiqi məsələləri nəzərdən keçirilir.*

Əlavə cəzaların meydana gəlməsi və inkişafı cəmiyyətin inkişafının obyektiv qanunauyğunluqları ilə şərtlənir. Bu cəzaların qanunvericilikdə tənzimlənməsi və praktikada tətbiqi həmin qanunauyğunluqlara uyğun olaraq inkişaf edir. Əlavə cəzalar uzun tarixi inkişaf yolu keçmişdir. Müasir təsəvvürlərə uyğun gələn əlavə cəzalar cinayət hüququnun müstəqil institutu kimi XVIII əsrin sonları – XIX əsrin əvvəllərində meydana gəlmişdir.

XIX əsrin birinci yarısında müasir Azərbaycan Respublikasının ərazisi Rusiyaya birləşdirildikdən sonra ölkədə Rusiyanın dünyəvi cinayət qanunları tətbiq edilməyə başlandı. Buna görə əlavə cəzalarla bağlı qanunvericiliyin inkişafını Rusiyanın qanunları əsasında izləməyimiz zəruridir.

Rusiyanın 1845-ci il Cinayət və islah cəzaları Qanunnaməsinin cəzalar sisteminə 43 cəza, paralel cəzaları nəzərə almaqla 52 cəza daxil idi. Cəzalar üç yerə bölünürdü: əsas cəzalar; əlavə cəzalar; əvəzedici cəzalar. Əlavə cəzalar olaraq ümumi hüquqlardan məhrum etmə müəyyən olunurdu. Onların üç tipi fərqləndirilirdi: 1) bütün ictimai hüquqlardan məhrum etmə; 2) bütün xüsusi, şəxsi və layiq görülmüş hüquq və imtiyazlardan məhrum etmə; 3) bəzi xüsusi, şəxsi və layiq görülmüş hüquq və imtiyazlardan məhrum etmə. Bütün bu hüquqlardan məhrum etmə ömürlük idi. Bundan başqa, katorqa və ya sürgün cəzasına məhkum edilən imtiyazı olmayan vətəndaşlar üçün 10-dan 100-ə qədər şallaq zərbəsi, həbs evlərinə göndərilənlərə isə 50-dən 100-ə qədər çubuq zərbəsi müəyyən edilirdi.

Qanunnamə yuxarıda göstərilən üç tipə daxil olan aşağıdakı əlavə cəza növlərini müəyyən edirdi: 1) ictimai hüquqlardan və ya silki hüquqlardan məhrum etmə; 2) vəzifə tutma hüquqlarından və imtiyazlardan məhrum etmə; 3) ailə hüquqlarından məhrum etmə; 4) əmlak

hüquqlarından məhrum etmə; 5) əmlak müsadirəsi; 6) yaşayış yeri seçməkdə məhdudiyyətlər.

Qanunnaməyə görə ictimai hüquqlardan və ya silki hüquqlardan məhrum etmə zadəganlar üçün nəslən və şəxsi zadəganlıq adını və onunla bağlı olan bütün imtiyazları itirməkdən, ruhanilər və ümumiyyətlə dini rütbə daşıyanlar, habelə rahiblik edənlər üçün dini mənsəbi və rütbəni, onlarla bağlı olan bütün imtiyazları itirməkdən, nəslən və şəxsi fəxri vətəndaşlar, tacirlər, habelə onların ailəsinə daxil olan, ailə başçısı ilə bir sırada dayanan şəxslər üçün təmiz adı, onlara verilmiş hüquq və imtiyazları itirməkdən ibarət idi.

Vəzifə tutma hüquqlarından məhrum etmə aşağıdakı hüquqlardan məhrum etməni nəzərdə tuturdu:

a) dövlət, silki, zemstvo (tərkibinin çox hissəsi zadəganlardan ibarət olan seçkili yerli idarə), şəhər və ya ictimai qulluqda olma, belə qulluğa girmə; b) kilsədə vəzifə tutma, belə vəzifəyə təyin edilmə; c) ordu və donanmada qulluqda olma; hərbi nizamnamə qaydasında könüllü zabit kimi xidmətdə olma; ç) zadəganlardan ibarət olan seçkili silki idarələrin qərar qəbul etməsində və seçkilərində iştirak etmə, zemstvo, şəhər və ya ictimai seçkili idarələrdə seçmə və seçilmə; d) ictimai və ya şəxsi təhsil müəssisələrində müdir, tərbiyəçi və ya müəllim olma, habelə ev müəllimi hüququndan istifadə etmə; e) ticarət müəssisəsində ilk iki dərəcəli, sənaye müəssisəsində isə ilk beş dərəcəli peşə şəhadətnaməsi əldə etmə; ə) hami və ya qəyyum olma; f) münsiflər məhkəməsinin hakimi, habelə idarə və ya müdiriyyət müsabiqəsində münsiflər heyətinin üzvü, andlı qəyyum, andlı iclasçı, silki, dövlət, şəhər və ya ictimai idarələrdə icra edilən işlər üzrə vəkil olma; g) şahid tələb edilən müqavilələr və ya aktlar bağlanarkən şahid olma.

İmtiyazlardan məhrum etmə aşağıdakıları nəzərdə tuturdu: a) zadəganlığın xüsusi dərəcəsinə malik olmanı göstərən fəxri titullardan, yəni qraf, knyaz, baron və s. adlarından məhrum etmə; c) rütbələrdən məhrum etmə; ç) istər rus, istərsə xarici ölkələrin hökumətlərinin verdiyi orden və fərqlənmə nişanlarından məhrum etmə; d) ictimaiyyət və ya hökumət tərəfindən verilən fəxri adlardan, yəni müəyyən şəhərin fəxri vətəndaşı, hökumət idarəsinin fəxri üzvü, elmlər akademiyasının, universitetin fəxri üzvü adlarından məhrum etmə; e) pensiya hüququndan məhrum etmə.

Katorqaya və ya sürgünə məhkum edilən şəxsin arvadı (əri) onunla getmədiyi halda, onlardan birinin xahişi ilə ər-arvad hüququna xitam verilə və nikah ləğv edilə bilərdi. Yaşı 14-dən yuxarı olan uşaqlar yalnız öz arzuları ilə valideynlərinin ardınca sürgün yerinə gedə bilərdilər. Yaşı 14-dən aşağı olan uşaqlar ər və ya arvaddan biri sürgün yerinə getmədikdə onun yanında ümumi himayədarlıq əsasında qalırdı.

Qanunnaməyə görə katorqa və ya sürgün cəzasına məhkum edilənlər bütün əvvəlki əmlak hüquqlarını, təbii ölüm halında olduğu kimi itirirdilər. Məhkumların bütün əvvəlki əmlakı, habelə məhkum edildikdən sonra vərəsəlik üzrə ala biləcəkləri əmlak, onların qanuni varislərinə keçirdi. Ölüm, katorqa və ya sürgün cəzasına məhkum edilənlər qohumluq münasibətlərinə görə malik olduqları əmlak hüquqlarını da itirirdilər. Qanunnamədə əmlakın tam və xüsusi müsadirəsinə yol verilirdi. Tam müsadirə məhkumun bütün əmlakının dövlətin nəfinə əlindən alınmasını nəzərdə tuturdu. Əmlakın tam müsadirəsi ölüm cəzasına və ya ömürlük katorqa yaxud sürgün cəzasına məhkum edilənlərə tətbiq edilirdi.

Katorqa, sürgün, islah evi və ya həbs cəzasına məhkum edilən şəxslər cəzalarını çəkib qurtardıqdan sonra üç ildən beş ilə qədər, onlar üçün müəyyən edilmiş yerlərdə polisin nəzarəti altında yaşamalı, başqa yerlərə, xüsusən paytaxt və quberniya şəhərlərinə getməməli idilər.

Qanunnamə müəyyən peşə və sənətlə məşğul olmaq hüququndan məhrum etməni də nəzərdə tuturdu. Zəhərli və güclü təsir edən maddələr satma; açma etmə və saxlama; mehmanxana saxlama; azyaşlılara və yetkinlik yaşına çatmayanlara nəzarət etmə; ravvin olma; ticarətlə məşğul olma hüquqlarından məhrum etmə müddətsiz, naşir və ya redaktor olma (5 ildən çox olmayan müddətə); ictimai və silki məclislərdə iştirak etmə (3 ildən 9 ilə qədər müddətə) hüquqlarından məhrum etmə müddətli idi. Həkimlik təcrübəsi ilə məşğul olma hüququndan məhrum etməyə, əlavə cəzası isə müəyyən müddətə qədər deyil, təqsirkar yeni sınaqdan çıxdığı müddətə qədər məhrum edilirdi.

Rusiyanın 1903-cü il Cinayət Qanunnaməsində də cəzalar sistemi üç yerə bölünürdü: əsas cəzalar; əlavə cəzalar; əvəzedici cəzalar. Əlavə cəzalara aşağıdakılar aid edilirdi: 1) müxtəlif növ hüquqlardan məhrum etmə; 2) seçki hüququnun məhdudlaşdırılması və yaşayış yerinin dəyişdirilməsi; 3) əmlak alma; 4) pul cəriməsi; 5) hökmün çap edilməsi; 6) vəzifədən kənarlaşdırma; 7) işçi evinə məhkum etmə.

1920-ci il aprelin 28-də bolşevik işğalı nəticəsində Azərbaycanda sovet hakimiyyəti quruldu, köhnə dövlət-hüquq sistemi süqut etdi, bütün cinayət qanunvericiliyi və məhkəmə sistemi ləğv edildi, devrilmiş hökumətin qanunlarının tətbiq edilməsinə qəti qadağan qoyuldu.

Azərbaycan SSR-in ilk Cinayət Məcəlləsi qəbul edilənə qədər respublikada cinayət hüququnun normalarının müəyyən edildiyi dekretlər, qərarlar, təlimatlar və s.-də əsas cəza tədbirlərinə həm də əmlak müsadirəsi, məcburi işlər, hüquqlardan məhrum etmə və s. əlavə cəzalar qoşulurdu. Ancaq həmin dövrdə müstəqil əlavə cəza institutu hələ mövcud deyildi, cinayət cəzalarının vahid sistemi də işlənib hazırlanmamışdı.

1920-ci il Azərbaycan SSR-in «Cinayət hüququnun əsas müddəalaharı»na 15 cəza növü daxil idi. Həmin cəza növlərindən ən çox tam və ya qismən əmlak müsadirəsi, etmə, siyasi hüquqlardan məhrum etmə, cərimə, bu və ya başqa bir vəzifə aparmağı, bu və ya başqa bir işlə məşğul olmağı qadağan etmə əlavə cəza qismində tətbiq edilirdi.

Azərbaycan SSR-in 1922-ci il dekabrın 9-da qəbul edilmiş birinci Cinayət Məcəlləsinin cəza sistemində on cəza növü müəyyən edilirdi: 1) Azərbaycan SSR hüdudlarından müddətli və ya müddətsiz qovma; 2) ciddi surətdə təcrid etməklə və ya etməməklə azadlıqdan məhrum etmə; 3) mühafizə altında saxlamamaqla məcburi işlər; 4) şərti məhkum etmə; 5) əmlakı tamamilə və ya qismən müsadirə etmə; 6) cərimə; 7) hüquqlardan məhrum etmə; 8) vəzifədən çıxarma; 9) ictimai məzəmmət; 10) zərəri ödəmək vəzifəsini öhdəsinə qoyma. Məcəllədə cəzaların əsas və əlavə cəzalara bölgüsü aparılmamışdı. Əlavə cəzaları əsasən azadlıqdan məhrum etmə, güllələnmə, məcburi işlər və s. kimi əsas cəzlara qoşulan əmlak müsadirəsi, cərimə, məsul vəzifə tutma hüququndan məhrum etmə cəzaları təşkil edirdi.

CM-in 38-ci maddəsində əmlak müsadirəsi belə müəyyən edilirdi: «Müsadirə – məhkumun bütün əmlakının və ya məhkəmə tərəfindən dəqiq müəyyən edilmiş hissəsinin, məhkum və onun ailəsi üçün məişətdə zəruri olan əşyalar, məhkumun və ailəsinin yaşamaq vasitəsi olan xırda, kustar və kənd təsərrüfatı istehsalı üçün vasitələr və ya məhkumun

şəxsi sənəti üçün zəruri olan əşyalar, habelə məhkumun və onun ailə üzvlərinin altı aydan az olmayan müddətə şəxsi tələbatı üçün zəruri olan ərzaq məhsulları istisna olmaqla, məcburi surətdə əvəzini ödəmədən dövlətin nəfinə götürməkdən ibarətdir.

Məhkum müəyyən peşə ilə məşğul olma hüququndan məhrum edildikdə, həmin peşə üçün zəruri olan avadanlıq müsadirə edilə bilər».

CM-in 39-cu maddəsinə görə cərimə məhkumun maddi imkanına uyğun olaraq müəyyən edilmiş həddə məhkəmə tərəfindən təyin edilən, məhkumdan tutulan pul məbləği sayılırdı. Azadlıqdan məhrum etməni cərimə ilə və cəriməni azadlıqdan məhrum etmə ilə əvəz etməyə yol verilmirdi. Məhkum cəriməni ödəməkdən yayındıqda və ya onu ödəməyə imkanı olmadıqda, məhkəmənin qərardadı ilə cərimə mühafizə altında saxlamadan məcburi əməklə əvəz edilə bilərdi. Məhkum azadlıqdan məhrum etmə cəzasına şərti məhkum edildiyi halda da əsas cəzaya pul və ya əmlak cəriməsi şəklində birləşdirilən əlavə cəzalar ümumi əsaslarla icra edilirdi.

1922-ci il CM-də əlavə cəza qismində hüquqlardan məhrum etmə beş ildən artıq olmayan müddətə aşağıdakı hüquqlardan məhrum etməni müəyyən edirdi:

a) aktiv və passiv seçki hüququ; b) peşə və digər təşkilatlara aktiv və passiv seçki hüququ; c) məsul vəzifə tutma, habelə xalq məhkəməsində iclasçı, müdafiəçi, qəyyum və hami olma hüququ.

1922-ci il CM-də əlavə cəzalar içərisində ən çox əmlak müsadirəsi və hüquqlardan məhrum etmə cəzaları sanksiyalarda daha çox təkrar olunmuşdur. Bu da praktikada onların daha çox tətbiqi tezliyini təmin etmişdir. Qeyd edilən əlavə cəza növlərinin tətbiqinə verilən üstünlük təkcə cinayətkarlıqla mübarizə funksiyasının yerinə yetirilməsi ilə bağlı olmamış, həm də onlardan siyasi hakimiyyətin möhkəmləndirilməsinin vasitəsi kimi istifadə edilmişdir.

Azərbaycan SSR-in 1927-ci il dekabrın 3-də qəbul edilmiş ikinci CM-də «cəza» terminindən imtina edilərək o, «sosial (ictimai) müdafiə tədbiri» termini ilə əvəz olundu. Bu dəyişikliyin əsasında qanunvericinin cəzanın əvəzçıxma məqsədindən qəti şəkildə imtina etdiyini, sovet hüququnun cəza sisteminin burjua hüququnun cəza sistemindən köklü şəkildə fərqləndiyini göstərməsi dururdu.

CM-in 22-ci maddəsində aşağıdakı sosial-müdafiə tədbirləri müəyyən edilirdi: 1) SSRİ vətəndaşlığından məhrum etməklə və İttifaq daxilindən mütləq qovmaqla zəhmətkeşlərin düşməni elan etmə; 2) ciddi surətdə təcrid etməklə azadlıqdan məhrum etmə; 3) ciddi surətdə təcrid etməməklə azadlıqdan məhrum etmə; 4) azadlıqdan məhrum etməməklə məcburi işlər; 5) siyasi və ayrı-ayrı mülki hüquqlardan məhrum etmə; 6) müəyyən müddətə SSRİ hüdudlarından kənara çıxarma; 7) məcburi olaraq başqa yerlərdə sakin etməklə və ya etməməklə, ayrı-ayrı yerlərdə yaşamağı qadağan etməklə və ya etməməklə, Azərbaycan SSR daxilindən və ya ayrı-ayrı yerlərdən çıxartma; 8) bu və ya başqa vəzifə aparmağı qadağan etməklə və ya etməməklə vəzifədən kənar etmə; 9) bu və ya başqa bir iş və ya peşə ilə məşğul olmağı qadağan etmə; 10) ictimai məzəmmət; 11) əmlakı tamamilə və ya qismən müsadirə etmə; 12) pul cəriməsi; 13) xəbərdarlıq etmə; 14) vurulmuş zərəri ödəmək vəzifəsini öhdəsinə qoyma.

Məcəllədə sosial müdafiə tədbirləri iki yerə - əsas və əlavə sosial müdafiə tədbirlərinə bölünürdü. Aşağıdakı sosial müdafiə tədbirləri isə həm müstəqil tətbiq edilə, həm də əsas sosial müdafiə tədbirlərinə qo-

şula bilərdi: 1) siyasi və ayrı-ayrı mülкi hüquqlardan məhrum etmə; 2) müəyyən müddətə SSR İttifaqı hüdudlarından кənara çıxarma; 3) məcburi olaraq başqa yerlərdə saкin etməкlə və ya etməməкlə, ayrı-ayrı yerlərdə yaşamağı qadağan etməкlə və ya etməməкlə, Azərbaycan SSR daxilindən və ya ayrı-ayrı yerlərdən çıxarma; 4) bu və ya başqa vəzifə aparmağı qadağan etməкlə və ya etməməкlə vəzifədən кənar etmə; 5) bu və ya başqa bir iş və ya peşə ilə məşğul olmağı qadağan etməк; 6) ictimai məzəmmət; 7) əmlaкı tamamilə və ya qismən müsadirə etmə; 8) pul cəriməsi; 9) vurulmuş zərəri ödəməк vəzifəsini öhdəsinə qoyma.

CM-in 36-cı maddəsinə görə siyasi və ayrı-ayrı mülкi hüquqlardan məhrum etməyə aşağıdaкılar aid edilirdi və onlar əlavə sosial müdafiə tədbiri ubcvbylz tətbiq edilə bilərdi: 1) sovetlər və sovetlər qurultayları seçкilərinə seçmə və seçilmə hüququndan; 2) ictimai təşкilatlarda seçкi ilə olan vəzifə tutma hüququndan; 3) bu və ya başqa dövlət vəzifəsi tutma hüququndan; 4) fəxri adları daşıma hüququndan; 5) valideynliк hüququndan məhrum etmə.

İctimai təşкilatlarda seçкi ilə olan vəzifə tutmaq hüququndan məhrum etmə məhкum edilən şəxsin beş ildən artıq olmayan müddətə müəyyən vəzifə tutmanı qadağan edirdi.

Valideynliк hüququndan məhrum etmə yalnız məhкumun bu hüquqdan sui-istifadə etdiyi müəyyən olunduğu hallarda təyin edilə bilərdi.

SSRİ və ya Azərbaycan SSR daxilindən çıxarma, məcburi olaraq bu və ya başqa yerlərdə saкin etməкlə və ya müəyyən yerlərdə yaşamağı qadağan etməкlə və ya bu məhdudluq olmadan ayrı-ayrı yerlər daxilindən çıxarma sosial müdafiə tədbirləri özünün hüquqi təbiətinə görə sürgün və ya кöçürmə idi. Məhкəmə cinayət etmiş şəxsin həmin yerlərdə qalmasını sosial təhlüкəli hesab etdiyi hallarda göstərilən sosial müdafiə tədbirlərini bir ildən beş ilə qədər müddətə tətbiq edə bilərdi. Bu sosial müdafiə tədbirləri azadlıqdan məhrum etməyə əlavə olaraq təyin edildiкdə, məhкəmə tərəfindən təyin edilən müddətin əvvəli həbs müddətinin qurtardığı vaxtdan etibarən hesablanırdı.

Beş ildən çox olmayan müddətə nəzərdə tutulan vəzifədən кənar etmə, məhкəmə məhкumun cinayət törətdiyi və ya məhкum edildiyi zaman tutduğu vəzifədə saxlanılmasını mümкün hesab etmədiкdə tətbiq edilirdi.

CM-in 42-ci maddəsinə görə «məhкumun öz işi və ya peşəsi ilə məşğul olduğu zaman bu işindən pis niyyətlə istifadə etməsi müəyyən edildiyinə görə onun yenə də bu iş və ya peşə ilə məşğul olmasını məhкəmə mümкün hesab etmədiкdə, məhкəmə tərəfindən həmin şəxsin beş ildən artıq olmayan müddətdə göstərilən iş və peşə ilə məşğul olmasını qadağan etmə» sosial müdafiə tədbirini tətbiq edə bilərdi. O sosial müdafiə tədbiri qismində tətbiq edildiкdə, əsasən azadlıqdan məhrum etmə və azadlıqdan məhrum etmədən islah işlərinə qoşulurdu.

1927-ci il CM-in 45-ci maddəsində əmlaк müsadirəsinə «məhкumun şəxsi əmlaкını və ya ümumi əmlaкdan onun payına düşən əmlaкın hamısını və ya məhкəmə tərəfindən dürüst müəyyən edilmiş bir hissəsini məcburi surətdə əvəzini ödəmədən dövlət mənfəətinə götürməк» кimi anlayış verilirdi. CM-in 45-ci maddəsində həmçinin müsadirə olunmayan əmlaкın siyahısı müəyyən edilmişdi. Yeni Məcəllədə əmlaк müsadirəsinin əlavə sosial müdafiə tədbiri кimi müəyyən edildiyi maddələrin sayı əvvəlкi Məcəlləyə nisbətən xeyli artırılaraq 54-ə çatdırılmışdı. Əmlaк müsadirəsi haqqında höкm ləğv edildiкdə əmlaк, bu mümкün

olmadıqda onun dəyəri qaytarılmalı idi. Əsas cəza şərti təyin edildiyi hallarda əmlak müsadirəsi ümumi əsaslarla icra edilirdi.

1927-ci CM-də cərimə ayrı-ayrı maddələrdə müəyyən edilmiş hədlər daxilində təyin edilən, əlavə sosial müdafiə tədbiri qismində tətbiq edildikdə isə məhkəmənin mülahizəsi ilə qoyulan pul tənbehi kimi müəyyən edilirdi. Cərimənin miqdarı məhkumun əmlak vəziyyətinə uyğun olmalı idi. Cərimənin azadlıqdan məhrum etmə ilə və azadlıqdan məhrum etmənin cərimə ilə əvəz edilməsinə yol verilmirdi. Cərimə ödənilmədiyi hallarda islah əmək işi ilə əvəz edilə bilərdi.

CM-in 49-cu maddəsinə görə zərərin ödənilməsi məhkumun üzərinə qoyula bilərdi. Ancaq bu sosial müdafiə tədbiri hökmlə təyin edilmiş əsas sosial müdafiə tədbirindən ağır ola bilməzdi.

1927-ci il CM-in 41-ci maddəsinin göstərişi üzrə cinayət törədən şəxslərin SSRİ ərazisindən, habelə respublikanın ərazisindən çıxarılmasına sürgün edilməsinə və ya köçürülməsinə CM-in 30-dan artıq maddəsi üzrə yol verilirdi. Bu cəza növü o dövrdə sinfi düşmən elan edilən bütün şəxslər barəsində tətbiq edilirdi. Respublikada 19 30-40-cı illərdə həyata keçirilən siyasi repressiyalarda sürgün və köçürmə ən işlək cəza növləri olmuşdur.

Azərbaycan Respublikasının 1960-cı il CM-də cəzalar sisteminə mühüm kəmiyyət və keyfiyyət dəyişiklikləır edildi. Məcəllənin 21-ci maddəsində cəzanın növləri müəyyən edilir və onlar tətbiq qaydasına görə üç yerə bölünürdü: əsas cəzalar; əlavə cəzalar; əsas və əlavə cəzalar.

Əlavə cəzalara aşağıdakılar aid edilirdi: 1) əmlak müsadirəsi; 2) hərbi rütbədən, xüsusi addan məhrum etmə; 3) valideynlik hüquqlarından məhrum etmə. Bundan başqa, aşağıdakı cəzalar həm əsas, həm də əlavə cəza növü kimi tətbiq edilirdi: 1) sürgün; 2) köçürmə; 3) müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə; 4) vəzifədən çıxarma; 5) cərimə.

1960-cı il Cinayət Məcəllәsində əlavə cəza kimi ən çox əmlak müsadirəsi təmsil olunmuşdu. Məcəllənin 32-ci maddəsində «əmlak müsadirəsi məhkumun şəxsi mülkiyyətində olan əmlakının hamısının, yaxud bir hissəsinin məcburi qaydada əvəzsiz olaraq dövlət mülkiyyətinə alınması» kimi müəyyən edilirdi. Qanunvericilik əmlak müsadirəsinin iki növünü fərqləndirirdi: 1) tam əmlak müsadirəsi; 2) qismən əmlak müsadirəsi. Tam əmlak müsadirəsi – müsadirənin yönəldilə bilməyəcəyi əmlak istisna olmaqla, məhkumun şəxsi mülkiyyətində olan əmlakın hamısının dövlət mülkiyyətinə alınması hesab edilirdi. Qismən əmlak müsadirəsi – məhkumun şəxsi mülkiyyətində olan və müsadirəsinə yol verilən əmlakın müəyyən hissəsinin dövlət mülkiyyətinə alınması sayılırdı. Bundan başqa CM-də xüsusi müsadirə də nəzərdə tutulurdu. Xüsusi müsadirə – məhkumun cinayət törədərkən istifadə etdiyi alət və vasitələrin, habelə cinayət yolu ilə əldə etdiyi predmetlərin müsadirə edilməsindən ibarət idi. 1970-80-ci illərdə əmlak müsadirəsinin tətbiqi sahəsi genişləndirildi. 1960-cı il CM-in qüvvədə olduğu son vaxtlarda əmlak müsadirəsini nəzərdə tutan sanksiyaların sayı 98-ə, xüsusi müsadirəni nəzərdə tutan sanksiyaların sayı 14-ə çatırdı.

Amnistiya qaydasında məhkum cəzadan tamamilə azad edildikdə, amnistiya aktı əmlak müsadirəsinə də şamil edilir və əmlak geri qaytarılırdı, bu mümkün olmadıqda isə əmlakın dəyəri ödənilirdi.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 12 yanvar 1999-cu il tarixli qərarına əsasən məhkumun xüsusi mülkiyyətdə olan əmlakının hamısının məcburi qaydada, əvəzsiz olaraq dövlət mülkiy-

yətinə alınmasını nəzərdə tutan CM-in müddəaları qüvvədən salınmış, əlavə cəza növü kimi nəzərdə tutulan əmlak müsadirəsinin yalnız cinayət törədilərkən istifadə edilmiş alət və vasitələrə, habelə cinayət yolu ilə əldə edilmiş əmlak barədə tətbiq edilməsi müəyyən edilmişdir.

1960-cı il CM-in 33-cü maddəsinə görə orden və medalla təltif edilmiş, xüsusi qayda ilə verilmiş hərbi rütbə və ya başqa adları olan şəxslər ağır cinayət üstündə məhkum edildikdə, məhkəmə hökm çıxararkən məhkumu orden və ya medalla təltif etmiş, yaxud ona rütbə və ya ad vermiş orqanın qarşısında məhkumu ordendən və ya medaldan, yaxud fəxri addan, hərbi rütbədən və ya başqa adlardan məhrum etmək haqqında məsələ qaldırmağın məqsədəuyğun olub-olmamasını həll edirdi.

1960-cı il CM-də əlavə cəza növü kimi müəyyən edilən valideynlik hüquqlarından məhrum etməni məhkəmə təqsirkarın törətdiyi cinayət həm də valideynlik hüquqlarından qəsdən sui-istifadə etməsi, valideynlik borcunu yerinə yetirməməsi ilə bağlı olduqda, əsas cəza ilə yanaşı əlavə cəza olaraq bir ildən üç ilədək müddətə təyin edə bilərdi.

1960-cı il CM-də əlavə cəza qismində təyin edilə bilən cəzalara sürgün və köçürmə də aid idi. Qanuna görə sürgün olaraq məhkumu onun yaşadığı yerdən uzaqlaşdırmaqla müəyyən yerdə məcburi qaydada məskun etmək nəzərdə tutulurdu. Sürgün yeri müəyyən inzibati-ərazi hüdudu ilə məhdudlaşdırılırdı. Sürgünə məhkum edilmiş şəxs məcburi qaydada məskun edildiyi inzibati rayon hüdudunda öz arzusu ilə yaşayış yeri seçirdi.

Köçürmə – məhkumun müəyyən yerlərdə yaşaması qadağan edilməklə, yaşadığı yerdən uzaqlaşdırılmasından ibarət idi. Köçürülmüş şəxslər məhkəmə hökmünə görə yaşamaları qadağan edilmiş yerlərdən başqa, istədikləri ərazini yaşayış yeri və iş yeri kimi seçə bilərdilər. Sürgün və ya köçürmə CM-in maddələrinin sanksiyalarında əsas cəza kimi nəzərdə tutulan azadlıqdan məhrum etməyə əlavə cəza qismində qoşulurdu.

Sürgün və ya köçürmə əlavə cəza kimi təyin edilən hallarda, onun icrasına azadlıqdan məhrum etmə cəzası çəkildikdən sonra başlanırdı. Sürgün iki ildən beş ilədək, köçürmə bir ildən beş ilədək müddətə təyin edilə bilərdi. Köçürmənin aşağı həddi bir ildən az olmamaqla müəyyən edildiyi halda, sürgünün aşağı həddi iki ildən az ola bilməzdi. Məhkəmə təcrübəsində sürgün və köçürmə əlavə cəza qismində olduqca nadir hallarda tətbiq edilirdi. Həmin cəza növləri 27 oktyabr 1992-ci il tarixli qanunla CM-dən çıxarıldı.

Təqsirkar vəzifə başında və ya müəyyən fəaliyyətlə məşğul olarkən, həmin mövqeyindən sui-istifadə etdiyi hallarda, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzası bir ildən beş ilədək müddətə təyin edə bilərdi. O, əlavə cəza təyin edildikdə əsasən azadlıqdan məhrum etmə və azadlıqdan məhrum etmədən islah işlərinə qoşulurdu. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə əlavə cəza qismində azadlıqdan məhrum etmə növündə cəzaya qoşulduqda əlavə cəzanın icrası azadlıqdan məhrum etmə cəzası tamamilə çəkildikdən sonra başlanırdı. Eyni zamanda məhkum azadlıqdan məhrum olunduğu bütün müddət ərzində göstərilən vəzifəni tuta bilməz, yaxud qadağan edilən fəaliyyətlə məşğul ola bilməzdi. Bu cəza əlavə cəza qismində sürgün, azadlıqdan məhrum etmədən islah işləri növündə əsas cəzalara qoşulan hallarda isə həm əsas, həm də əlavə cəzanın icrası eyni vaxtda başlayırdı. Təqsirkar şərti məhkum olunduqda, onun barəsində müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə şəklində əlavə cəza təyin edilə bilməzdi.

1960-cı il CM-in 28-ci maddəsinə görə məhkəmə məhkumun tutduğu vəzifədə qalmasını qeyri-mümkün hesab etdikdə, vəzifədən çıxarma cəzasını tətbiq edə bilərdi. Vəzifədən çıxarma qismində əlavə cəzaya məhkum edilərək vəzifədən azad edilmə, məhkumu başqa idarədə və ya təşkilatda uyğun vəzifəyə girmək hüququndan məhrum etmirdi.

1960-cı il cinayət qanununa görə cərimə – qanunla müəyyən edilmiş hallarda və həddə məhkəmə tərəfindən qoyulan pul tənbehi kimi müəyyən olunurdu (maddə 29). Cərimənin miqdarı təqsirkarın əmlak vəziyyəti nəzərə alınmaqla, edilmiş cinayətin ağırlığından asılı olaraq müəyyən edilirdi. Qanunda cərimənin minimum və maksimum hədləri müəyyən edilmirdi. Cərimənin dərhal ödənilməsi mümkün olmadıqda, onun ödənilməsinə altı ay müddətinədək möhlət verilə bilərdi və ya cərimə hissə-hissə alına bilərdi. Qanuna görə cəriməni almaq mümkün olmadıqda, cərimə onun hər otuz manatına bir ay islah işləri hesabı ilə bir ildən artıq olmamaqla islah işləri ilə əvəz olunurdu. Əvvəlki qanunda olduğu kimi cərimənin azadlıqdan məhrum etmə ilə və azadlıqdan məhrum etmənin cərimə ilə əvəz edilməsinə yol verilmirdi. Cərimə ödənilmədikdə müsadirə edilməməli olan əmlak və əşya növləri istisna olmaq şərtilə əmlakın götürülməsinə yol verilirdi.

Azərbaycan SSR Ali Məhkəməsi Plenumunun 28 dekabr 1971-ci il tarixli qərarında deyilirdi ki, «qanunun tələblərinə müvafiq olaraq təyin edilən əlavə cəzalar, məhkumların tərbiyə və islah edilməsində, eləcə də onlar və başqa şəxslər tərəfindən yeni cinayətlər edilməsinin qarşısının alınmasında böyük əhəmiyyətə malikdir».

Azərbaycan Respublikasının 1960-cı il CM-də ilk cinayət məcəllələri ilə müqayisədə cəzanın sistemini təkmilləşdirilmiş, siyasi motivlərlə cəzaların tətbiqi xeyli məhdudlaşdırılmışdı. 1960-cı il CM-də cəzanın sistemində sürgün və köçürmə həm də əlavə cəza növləri kimi saxlansa da, Məcəllənin Xüsusi hissəsində son dərəcə az sayda maddələrin sanksiyalarına onlar daxil edilmişdi. Başqa sözlə, 1960-cı il CM-də nəzərdə tutulan sürgün və köçürmə növündə əlavə cəzalar artıq 1930-40-cı illərdə repressiya vasitəsi kimi oynadığı rolu itirmişdi.

Respublikanın 1960-cı il CM-i üzrə əlavə cəzalardan əmlak müsadirəsi və müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüquqendan məhrum etmə 1960-90-cı illərdə cinayətkarlıqla mübarizədə ən intensiv formada tətbiq edilən cəza növləri olmuşdur.

Əmlak müsadirəsi xüsusən sosialist mülkiyyəti əleyhinə edilən cinayətlərlə mübarizədə demək olar ki, hər bir halda tətbiq edilirdi. Hətta SSRİ Ali Məhkəməsi Plenumunun 29 avqust 1980-ci il tarixli qərarında deyilirdi ki, əmlakın olmaması belə əmlak müsadirəsi növündə cəzanın tətbiqinə mane ola bilməz. Plenumun qərarında göstərilirdi ki, əmlak olmasa belə, əmlak müsadirəsi növündə cəza, hər bir halda tətbiq edilməlidir. Eyni zamanda müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə əlavə cəzanın qanunda nəzərdə tutulmayan hallarda belə praktika tətbiqi məhkəmələrdən tələb edilirdi. Ümumiyyətlə, 1960-90-cı illər üzrə əlavə cəzaların tətbiqi praktikasının təhlili göstərir ki, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cinayətkarlıqla mübarizədə tətbiqi tezliyinə görə əmlak müsadirəsindən sonra ikinci yerdə dururdu.

Azərbaycan Respublikasının 1999-cu il CM-də cəza sistemi daha da təkmilləşdirildi. Bu Məcəllədə də cəza növləri tətbiq qaydasına görə üç yerə bölünür: əsas cəzalar; əlavə cəzalar; əsas və əlavə cəzalar.

Əsas cəza növlərinə daxildir: 1) ictimai işlər; 2) islah işləri; 3) hərbi xidmət üzrə məhdudlaşdırma; 4) azadlığın məhdudlaşdırılması; 5) müəyyən müddətə azadlıqdan məhrum etmə; 6) ömürlük azadlıqdan məhrum etmə.

Əlavə cəza növlərinə aid edilir: 1) xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə; 2) nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum etmə; 3) Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma; 4) əmlak müsadirəsi. Yeni Cinayət Məcəlləsinə görə aşağıdakı cəza növləri həm əsas, həm də əlavə cəza kimi tətbiq edilir: 1) cərimə; 2) müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə.

## ƏDƏBİYYAT


1. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı», 2002.
2. Шаргородский М.Д. Наказание по советскому уголовному праву. М., 1958.
3. Гальперин И.М., Мельникова Ю.Б. Дополнительные наказания. М., Юрид. лит., 1981.
4. Уголовное право. История юридической науки. М., Наука, 1978.
5. Azərbaycan SSR Ali Məhkəməsi Plenumunun qərarlar məcmuəsi (1961-1997). Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 1998.


## ОБ ИСТОРИИ РАЗВИТИЯ УГОЛОВНОГО ЗАКОНОДАТЕЛЬСТВА АЗЕРБАЙДЖАНА ПРИМЕНИТЕЛЬНО К ДОПОЛНИТЕЛЬНЫМ НАКАЗАНИЯМ


**А.А.ДЖАФАРОВ**



**РЕЗЮМЕ**

В статье исследуются вопросы истории развития уголовного законодательства применительно к дополнительным видам наказаний по Уложению об уголовных и исправительных наказаний России 1845, 1903 гг. и уголовному законодательству Азербайджанской Республики 1922, 1927 и 1960 гг., определяющих регулирование таких видов наказаний в уголовном законодательстве и в правоприменительной деятельности.